**Beynəlxalq əməkdaşlıq və informasiya texnologiyaları şöbəsi, İnformasiya texnologiyaları sektoru, sektor müdiri**

**Vəzifənin kodu:** 136441

**İş yerinin ünvanı:** Bakı şəhəri, Xəqani küçəsi 33

**İnzibati vəzifənin təsnifatı:** İnzibati (4)

**Vəzifə maaşı:** 1470 manat

**Qulluq funksiyaları:**

- Palatanın informasiya sisteminin idarə olunması ilə bağlı strateji planlaşdırmanı həyata keçirmək və müəyyən edilmiş məqsədlərə nail olmaq üçün aparılan gündəlik işi təşkil etmək;
- Palatanın informasiya sistemlərinin auditi üzrə fəaliyyətini təşkil etmək;
- Palatanın kənar dövlət auditi funksiyasının icrasında informasiya texnologiyalarının tətbiqi ilə bağlı dəstək işini qurmaq;
- Palatanın informasiya sistemlərinin idarəolunması və auditi üzrə metodoloji sənədlərin hazırlanması və onlara əməl olunmasına nəzarətin təşkili;
- Şöbə və sektorun vəzifə və funksiyaları ilə əlaqəli müvafiq yazışmaların aparılması, daxil olmuş sənədlərin vaxtında icrasını təmin etmək;
- Şöbənin fəaliyyəti barədə illik hesabatın hazırlanması ilə bağlı işlərdə iştirak etmək və rəhbərlik etdiyi sektorun illik fəaliyyət məlumatını hazırlamaq;
- Palata rəhbərliyinin şifahi tapşırıqlarının vaxtında və düzgün yerinə yetirilməsi məqsədilə müvafiq işlərin aparılmasını təmin etmək;
- Sektorun işi ilə bağlı müvafiq təkliflər vermək;
- Şöbə müdiri tərəfindən verilmiş digər tapşırıqları yerinə yetirmək;
- Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş və Palatanın rəhbərliyi tərəfindən verilmiş digər vəzifələri yerinə yetirilməsi.

**Vəzifənin tutulması şərtləri:**

- **təhsil :** İİ 010900 İqtisadi kibernetika, İİM 010027 İqtisadi kibernetika, İİ 010000 Ümumi iqtisadiyyat, İİM 010000 İqtisadiyyat, TE 010000 Riyaziyyat, TE 100200 İnformatika, TEM 010000 Riyaziyyat, T 180000 İnformatika və hesablama texnikası, TM 180000 İnformatika və hesablama texnikası, TEM 010020 İnformatika, TT 210000 Kompyuter riyaziyyatı, TTM 130000 Kompüter riyaziyyatı, TT 160000 İnformasiya sistemləri, TTM 080000 İnformasiya sistemləri, TE 100100 Tətbiqi riyaziyyat
- **iş stajı :** vəzifə səlahiyyətlərinə uyğun azı 5 il iş stajı
- **Sertifikat :** AB1
- **kompüter bilikləri :** (MS WINDOWS, MS OFFICE, INTERNET və s.) – yüksək səviyyədə
- **xarici dil bilikləri :** İngilis dili - B2 səviyyəsində, Rus dili - B2 səviyyəsində